Ümumi məlumat	Fənnin adı, kodu və kreditlərin sayı	**DSN 430 Tətbiqi incəsənət dizaynı, 3 KU(6 ECTS)**
	Departament	Memarlıq və dizayn departamenti
	Proqram (bakalavr, magistr)	Bakalavr
	Tədris semestri	2022/23-cü tədris ilinin payız semestri
	Fənni tədris edən müəllim (lər)	Mehdi Samadi
	E-mail:	mehdisamadi81@gmail.com
	Telefon:	
	Mühazirə otağı/Cədvəl	Neftçilər kampusu, 315-ci otaq 5-ci günlər 13:40-15:20
	Məsləhət saatları	Razılaşdırılaraq təyin etmə ilə
Prerekvizitlər		
Tədris dili	Azərbaycan	
Fənnin növü (məcburi, seçmə)	Məcburi	
Dərsliklər və əlavə ədəbiyyat	Əsas dərsliklər: 1.Məcid Hüseyni "Tətbiqi incəsənətin əsasları" 2.Ruyin pakbaz "Tətbiqi incəsənət ensiklopediyası" 3.Edmund Burke Feldman "experience varieties of visual" 4.György Kepes "Language of vision" 5.Bruno Munari "Visual design and communication" 6. Donis A. Dondis "A primer of visual literacy"	
Kursun təsviri	Bu fənn qeyd etdiyim kitablar əsasında və bundan da əlavə internet resurslarından istifadə edərək keçirilir. Semestr ərzində keçirilən dərslər dizayn fakultəsi üçün lazım olan fundamental bilikləri öyrədir.	
Kursun məqsədləri	Kursun əsas məqsədi dizayn tələbələrinin elmi və praktik biliyə malik olmasıdır. Bu fənndə keçirilən fəsillər tələbələrə müxtəlif təsvirlər və layihələrlə rastlaşdıqda onları necə təhlil etmək biliyini artırır və həmçinin öyrəndiklərini icra etdikləri layihələrdə tətbiq etməklə nəticədə ərsəyə gələn əsər daha düzgün və iradsız olur.	
Tədrisin (öyrənmənin) nəticələri	Fənnin ümumi tədrisi prosesində tələbələr: ● Təhlil etmə qabiliyyətini inkişaf etdirərək müxtəlif əsərlər haqqında düzgün analizlər edə biləcək ; ● Azərbaycanda ümumtəhsil məktəblərində tədris elədiyi fənnin rahatlıqla öhdəsindən gələcək; ● İcra etdiyi layihələrə daha da yaradıcı və müasir tələblərə uyğun yanaşa biləcək ; ● Gələcəkdə müstəqil şəkildə və ya müxtəlif şirkətlərdə biliyə sahib olan dizayner kimi fəaliyyət göstərə biləcək; ● Təlim məqsədlərini həyata keçirmək üçün məqsədəuyğun üsul və formalardan istifadə etməyi bacaracaq;	

Tədris metodları	Mühazirə		
	Qrup müzakirəsi	x	
	Praktiki tapşırıqlar	x	
	Praktiki məsələnin təhlili	x	
	Digər		
Qiymətləndirmə	**Komponentləri**	**Tarix/son müddət**	**Faiz (%)**
	Fəallıq		5 bal
	Tapşırıq		15 bal
	Davamiyyət		5 bal
	Aralıq imtahanı		30 bal
	Final imtahanı		45 bal
	Yekun		100 bal

Qaydalar (Tədris siyasəti və davranış)

Fəallıq

Fəallığa veriləcək 5 bal tələbənin tapşırıqlardan əlavə faylların hazırlanmasına, fənnin öyrənilməsində elavə materialların axtarışına və həmçinin tapşırıqlara hansı dərəcədə yaradıcı yanaşmağına görə verilir. Fəallığa görə ayrılan bal tələbənin aktiv olmağında və dərsə aid əlavə araşdırmalar etməyinə müsbət təsir göstərir və tələbə verilən tapşırıqların icrasında daha da məsuliyyətli olur.

Tapşırıq

Fənn müəllimi tərəfindən hər dərs üçün ev tapşırıqları müəyyən edilir. Semestr ərzində 15 həftə olduğu üçün və hər həftənin mövzusunua aid tapşırıq verilməsinə görə hər tapşırıq 1 balla qiymətləndirilir və bunun da cəmi 15 bal edir. Tələbələr tapşırığı fərdi şəkildə hazırlamalı və dərsdə təqdim etməlidir.

İstisna: Dərsdə iştirak etməyən tələbə akültə dekanlığına öncədən üzrlü səbəbdən (ailəvi vəziyyət və səhhətlə bağlı) dərsdə iştirak edə bilməyəcəyi haqda məlumat vermişsə, və ya sonra bununla əlaqədar hər hansı bir sənəd (ərizə və ya arayış) təqdim edibsə, yalnız bu halda tələbənin yerinə yetirən tapşırıqlarına yenidən yoxlama keçirilə bilər.

Davamiyyət

Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Dərsə 10 dəqiqə gecikən tələbəyə qayib yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır. Tələbələr müəyyən səbəblərdən (xəstəlik, ailə vəziyyəti və s.) dərslərin buraxılması haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.

İmtahanlar

Aralıq imtahanı oktyabr ayında tədris olunan mövzular üzrə, final imtahanı noyabr və dekabr ayında tədris olunan mövzular əsasında keçiriləcəkdir. Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.

Fənni bitirmək qaydası

Univesitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 % və daha yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.

İmtahan qaydalarının pozuntuları

Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmələr qadağandır. Bu qaydaya əməl etməyən tələbənin imtahan işi ləğv olunur

	və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır. **Tələbənin davranış qaydaları** Dərs zamanı dərs prosesini pozmağa və ya qeyri-etik hərəkətlər etməyə, həmçinin tələbələrin icazəsiz müzakirələrinə və mobil telefondan istifadəsinə icazə verilmir.

Cədvəl (dəyişdirilə bilər)

Həftə	Tarix	Fənnin mövzuları	Dərslik/Tapşırıqlar
1.	**16.09.22**	Təsviri sənətin əsas elementləri ilə tanışlıq	1.1-ci fəsil səh.3-7
2.	**23.09.22**	Vizual elementlər	1.1-ci fəsil səh.7-10
3.	**30.09.22**	Kadrın əhəmmiyyəti (kompozisiyanın qurulma sahəsi)	1.1-ci fəsil səh.10-13
4.	**07.10.22**	Təsviri nöqtə və onun müxtəlif mövqeləri	1. 2-ci fəsil səh.13-20
5.	**14.10.22**	Xətt və onun növləri	1. 2-ci fəsil səh.20-32
6.	**21.10.22**	Səth	1. 2-ci fəsil səh.33-38
7.	**28.10.22**	Həcm	1. 2-ci fəsil səh.39-46
8.	**04.11.22**	**Aralıq imtahanı**	
9.	**11.11.22**	Forma və növləri	1.3-cü fəsil səh.48-56
10.	**18.11.22**	Tekstura və onun işlənmə texnikaları	1. 3-cü fəsil səh.57-68
11.	**25.11.22**	Mütənasiblik	1. 4-cü fəsil səh.69-76
12.	**02.12.22**	Balans və vizual balans yaratmaq	1.4-cü fəsil səh.77-83
13.	**09.12.22**	Kontrast	1.4-cü fəsil səh.84-87
14.	**16.12.22**	Hərəkət və ritm	1.4-cü fəsil səh.88-95
15.	**23.12.22**	Kompozisiya	1.4-cü fəsil səh.97-113
Final imtahanı			